

Aysel SƏFƏRLİ

***

Sağ çıxdığım savaşlarda
Zirvəsi talanmış dağam.
Heykəlinə şeir yazan
İnsan adlı oyuncağam.

Nə təpətək təpə oldum,
Bir zirvə oldum "quşqonan".
Nə özgəsi olammadım,
Bir bütəm, yondu daşyonan.

Dua etdim, şam alışdı,
Yandı içimdə məbədim.
Ay işığına aldandım,
Söndü günəşim əbədi.

Yuvasız, köçəri qəlbim
Qəfəsdə etdi intihar.
Soruşma məndən halımı,
Gözüm qəm dolu intizar.

Uzaq gəz məndən, İlahi,
Bulaşma insan kirinə.
Yalanla qohum olan mən,
Şərikəm dünya sirrinə.

Soruşma məndən halımı,
Necəyəm, deyə bilmirəm.
Soyunmuşam sevincimi,
Neyləsəm, geyə bilmirəm...

## ŞAİRİM

Sən hər beyt titrədikcə içimdə,
Failatün failatün failün…
Qəliblərə sığmıram,
Sənə olan duyğuları
Misralardan yığmıram.
Şeir-şeir yaşadıqca
sevgini
ölçülərə baxmıram…

Tutub ilham pərisini
Dizi üstə çökdürürəm.
Sətirlərin qarşısına
Heca-heca eşq səpirəm.
Duyğuları günəş-günəş
doldururam qələmə…
Çiçəklərin ruhunu
Çəkirəm söz şirəmə,
səni hər an
eşq-eşq doğub şeirimə,
Şairim!..
Nə bölgüm var, nə qəlibim,
gəl ömrümə,
Failatün failatün failün…

## DƏRVİŞ ÖMRÜ

Mənimki dərviş ömrüdür,
Varlığıma dar gəlirəm.
Həyatımı başdan yazdım,
Taleyinə sirr gəlirəm.

Gəl pirim ol, duan olum,
Bir udumluq havan olum.
Eşqə tərəf gəlir yolum,
Dur ayağa, dur, gəlirəm.

Qarmağı sevən balığam,
Səndən qalan tək qalığam.
Gör necə xarabalığam,
Bizə yuva qur, gəlirəm.

Kədər gözlərimdə pərdə,
Həsrət danışıram dərdə.
Ayı qopar gecələrdən,
Saçlarıma vur, gəlirəm.

Gözlərimdən sevgi qoxla,
Ürəyimi məhkum saxla.
Bir gecəni eşqlə yoxla,
Saatını qur, gəlirəm.

**KEÇİR**

Sənə sarılmağım eşq atəşindən,
Səni yaşamağım dünəndən keçir.
Sənin misraların baxışlarımdan,
Sevgi nəğmələrim sinəndən keçir.

Məhbəs ümidlərim qəm qalmaqallı,
Bu zindan həsrətin ayrılıq dolu.
Ruhun arzuları mənə qandallı,
Varlığı eşq olan adamdan keçir.

Kövrək baxışlarım kirpikdə sınar,
Həsrətin gözümə kəpənək qonar.
Ömür sancı-sancı içimdə dinər,
Sənin doğuluşun, bil, məndən keçir.

Canımda susmayan ən həzin bəstə,
Dodağa qısılıb qalan nəfəsdə.
Sənin arzuların bu boyu bəstə,
Bu köksü sən olan vətəndən keçir...

**LA İLAHƏ İLLƏLLAH**

Mən
gizli bir otaq arakəsməsindən
səni
günah kimi danışıram
bir rahibə...
Monasıtrın
zəhmli divarları
pıçıltılarımı
kilsə zənglərinin səsində boğur...
Çarmıxdakı həsrətin
qeybə çəkilmiş ümidləri
yuxularıma müqəddəs ağrılarla doğur.
Səcdələrim
sevginə darıxır,
əl açan ovuclarımdan
ayrılıq daşır...
Bütün dinlərin
fikirləri qarışır...
Daha gəlmə,
çünki
gedişin
ayrılığın bütün hallarında
ruhumu göynədir.
Sevgilər
bütün
inanclarda
eynidir...
Qarışıq düşüncələrim
topalanan buludlar boyu
ümidlərimə tuşlanan bir silah,
qeybdən gələn bir səs
ruhumu hüzura çağırır,
gedirəm:
“La İlahə İlləllah...”

***

İçimdə
hövzəsi böyüyən yoxluğun –
dodaqlarım boyu
dəniz quraqlığı...
Qarmağıma eşq taxdım,
həsrətini gözlərimdəki
suya buraxdım...
Sənli anlar
bərk sıxdığım
ovuclarımdan
balıq kimi sürüşdü,
dərdin toruna
ilişdi...
İndi
sənə qovuşmaq üçün
dəryaları içirəm,
sevincin
göz yaşına boğulan
balıq yaddaşına
köçürəm...
Bu sabah
havası ağırlaşıb
şəhərin,
tökülür pulcuqlarım,
daralır qəlsəmələrim...
Tez gəl!

**GENERALA...**
(General POLAD HƏŞİMOVUN
ruhuna sayğı ilə...)

Düşmənin hücum əmri
əsgər çəkmələrinin bağında
boğulurdu,
şinelin
sol döşündəki şəkil
dua əvəzi
güc verdikcə
silahlanmış nifrət
döyüş yanğısıyla
atəş açırdı...
Torpaq
ayaqlar altında
qarış-qarış azalmaqdan qorxurdu...

Səngər boyu sürünən
qəzəb
ölümü
tətiklədikcə
Qarabağ uzaqdan
ümid dolu gözlərlə
yalançı sərhədlərin
tikanlı məftillərindən
həsrətlə baxırdı...
Atası döyüşdə olan
uşaqlar
şəhid oğlu kimi
doğulurdu...
Anaların
oğul həsrəti
torpağın sinəsində
vətən-vətən
darıxırdı...

N saylı hərbi hissə boyu
boğuşan güllələr
və
komandirin
atəş əmri mərmi sükutunu
pozduqca
yaralı əsgərlərin titrək
dodaqlarına
son ümid
son məktub əvəzi sıxılırdı...
Torpaq şəhid doğurdu...
Dünya
Tovuz boydaydı bu gecə,
bütün manşetlər boyu
güllələnirdi xəbərlər,
Bir generalın son əmrinə
müntəzir dayanmışdı
əsgərlər...
Paytaxta şəhid gəlirdi...

***

Bir gün
heç tanımadığın birinə uzanar əllərin,
yad baxışlarda
doğmalaşar duyğular...
Bir ürək böyüdərsən
ovcunun içində,..
onun üçün.
Monitor işığında
aydınlanar
fikirlərin...
Klaviaturalar sevmək əmri
verər barmaqlarına.
Eşq düşər
fırtınalı könlünün
boş qarmaqlarına.
Hər gecə
uçurum kənarından
yığılar hisslərin...
Əllərin
ümidlərdən
yelləncək qurar
intiharın ipində,
ömür
çiçəkləyər dar ağacı...
Sonra
siz “sən”ə çevrilər,
qarışıb “biz “olarsan,
Bütün
ağrıları
çıxararsan yadından,
dodaqları
ən doğma duyğularla
sevgi şeiri oxuyar
o “yad”ın da...